**UOT 323.28**

**Rəcəb BABAYEV**
*Dissertant,*
*AMEA Fəlsəfə İnstitutu*

# QLOBALLAŞMANIN BEYNƏLXALQ TERRORÇULUĞA TƏSİRİ *

Qloballaşma anlayışı dünyanı vahid məkan olaraq görən yeni idrak tərzinin formalaşması prosesidir. Qloballaşma coğrafi məkanın iqtisadi, siyasi, sosio-mədəni inteqrasiyaya qoyduğu məhdudiyyətlərin azaldığı, insanların bu azalmanı getdikcə daha çox hiss etməyə başladığı sosial prosesdir [9, s.449]. A.Giddensə görə "qloballaşma, uzaq məkanların bir-birinə inteqrasiya olduğu, lokal proseslərin uzaq məsafədə baş verən hadisələrin təsirinə məruz qalacaq səviyyədə dünya miqyasında ictimai münasibətlərin artmasıdır[8, s.45]. Qloballaşma siyasi və iqtisadi təsirlərin cəmindən meydana gələn və ardıcıllıq təşkil edən mürəkkəb proseslərdən ibarətdir. Bu tendensiya, bir tərəfdən yeni dövlətlərüstü sistemlərin və güclərin meydana gəlməsinə səbəb olarkən, digər tərəfdən, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə getdikcə müəyyən dəyişikliyə məruz qalır. Qloballaşma hazırkı siyasi kurslardan və proseslərdən fərqli əsaslara malikdir. Bir bütün olaraq qloballaşma yaşadığımız cəmiyyətin özünəxas təsisat, təşkilat və qurumlarını transformasiyaya məruz qoyur.

Robertson qloballaşmanı "fərdiyyətçiliyin bəşəriləşməsini və bəşəriliyin fərdiləşməsini əhatə edən dərin, ikitərəfli proses" olaraq görür[10, s.102]. Bu mənada qloballaşma lokallığı yenidən formalaşdıran bir prosesdir və lokal olanı məhv etmək əvəzinə, özünə inteqrasiya edir. Lakin "lokallaşma" anlayışı qloballaşmanın həyat tərzləri arasındakı fərqliliyi yox etdiyini gizlədən funksionallığa malikdir.

Sol təmayüllü tənqidçilər marksizm nöqteyi-nəzərindən yola çıxaraq, qloballaşmanı imperyalist və istismar edən kapitalizmin özünəməxsus yeni forması olaraq qəbul edirlər. Qloballaşma anlayışı qlobal səviyyədə inteqrasiya olmuş cəmiyyətin, bu inteqrasiyanı ifadə edəcək bir kateqoriyaya duyduğu ehtiyacın nəticəsi olaraq ortaya çıxmışdır. Chanda [4, s.4] qloballaşmanı biznesmenlər, natiqlər, macərapərəstlər və hərbçilər olaraq sinifləndirilə biləcək dörd əsas aktor qrupu tərəfindən oriyentasiya edilmiş tarixi proses olaraq ifadə edir.

Dünya əhalisinin sürətlə artması, silah və İKT-də yaşanan sürətli inkişaf milli sərhədləri aşan "yeni nəsil" təhlükələr yaradaraq, təhdid növlərini xeyli artırmışdır[2, s.9] Terrorçuluq da bu təhdidlər arasında ən təhlükəli və geniş şəkildə yayılanlardan biridir.

Terror latın dilindəki "terrere" sözündən yaranmış "qorxutmaq, dəhşətə salmaq, qorxudub qaçırmaq, daşındırmaq" kimi mənalara gəlir. Tarixi mənbələrdə Fransa Burjua İnqilabından sonra 1793-cü ilin mart ayı ilə 1794-cü ilin iyul ayları arasında meydana gələn hadisələr səbəbilə, həmin dövr "terror dövrü" olaraq qəbul edilir. Bu dövrdə inqilaba qarşı çıxan insanların müqavimətini qırmaq üçün dövlət mərkəzli terror aktlarının sayı artmışdı. Bundan başqa, XIX əsrin sonları-XX əsrin əvvəllərində Rusiyada, sonralar İspaniya, Böyük Britaniya və Türkiyədə müşahidə edildiyi kimi terror, dövlətə və mövcud iqtidara və avtoritar və ya totalitar olduğu irəli sürülən rejimlərə qarşı olan fərdi və ya qruplar tərəfindən, bir mübarizə vasitəsi olduğu iddia edilərək tətbiq edilən metodlardan biri olmuşdur [12, s.61].

Terrorçuluğun əsasını təşkil edən səbəblər son dərəcə müxtəlifdir: daxili və xarici səbəblər, siyasi, iqtisadi, dini, etnik, mədəni səbəblər və s. Terrorizmin ən çox yayılmış və humanitar təhlükəsizliyi təhdid edən ən təhlükəli səviyyələrindən biri beynəlxalq terrorçuluqdur. Beynəlxalq terrorçuluq qloballaşma mərhələsində yaranan bir təhlükə deyil. Belə ki,

* Məqalə fəlsəfə ü.f.d. Mətləb Mahmudov tərəfindən çapa məsləhət görülüb.

terrorçuluğun tarixi bəşər tarixi qədər qədim və tarix boyu təhlükəsizliyə təhdid təşkil etmiş fəaliyyət forması olmuşdur. Lakin Soyuq Müharibənin başa çatması ilə terrorun aldığı yeni forma bu təhdid formasını tarixin heç bir mərhələsində olmadığı qədər ciddi bir təhlükə mənbəyinə çevirmişdir. Bunun bir neçə əsas səbəbi var. Əvvəla, terrorçuluq, Soyuq Müharibə dövründə müəyyən qədər dövlətlərin nəzarətindəydi. Həmin dövrdə dövlətlər "düşmən" olaraq gördükləri dövlətlərə qarşı terrorçuluq aktlarından öz xarici siyasətlərinin bir vasitəsi olaraq istifadə edirdilər. Bu da terror təhdidinin müəyyən qədər nəzarət altında tutulmasına səbəb olurdu. Ancaq ikiqütblü sistemin dağılmasından sonrakı yeni dövrdə terrorçuluğun üzərindəki bu nəzarət böyük ölçüdə ortadan qalxdı. Yeni terrorçuluq artıq dövlətlərin bir-birini zəiflətmək və ya yox etmək üçün istifadə etdikləri vasitə deyil və terrorun hədəfləri getdikcə marginallaşmaya başlamışdır. Bu o demək deyildir ki, dövlətlərin terrorçular ilə əlaqəsi tamamilə kəsilmişdir. Bu əlaqə indi də davam edir, lakin terrorçuluq əvvəlki dövrlə müqayisədə xeyli "müstəqilləşmiş"dir. Möhkəm nəzarət altında olmayan, elastik struktura malik terror təşkilatları vasitəsilə müasir texnologiyanın imkanlarından istifadə edərək həyata keçirilən terrorçuluq aktlarının qarşının alınması get-gedə çətinləşir və təsir gücü yüksəlir.

Keçmişdə həbs edilən terroristin verdiyi məlumatlar terror təşkilatı haqqında önəmli məqamları əhatə edirdi və iyerarxik struktura malik olan belə təşkilatlar daha rahat ortadan qaldırılırdı. Ancaq yeni dövrdə bir-birindən xəbərsiz dəstələr şəklində təşkilatlanan bu terror qruplarının ortadan götürülməsi bir tərəfə, aşkar edilməsi belə olduqca çətin məsələdir. 11 sentyabr terror aktları, habelə Böyük Britaniya, İspaniya, Türkiyədə baş verən terror hadisələrinin qarşısının alına bilməməsinin əsas səbəblərindən biri budur. Bunu, yeni bir təhdidə qarşı köhnə silahlarla döyüşməklə müqayisə etmək olar. Eyni zamanda, köhnəlmiş metodlardan istifadə edən kəşfiyyat fəaliyyətləri yeni terror təhdidinə qarşı çox da səmərə verməmişdir.

Beynəlxalq terrorçuluq xarici dövlətin vətəndaşlarına, təşkilatlarına, hökumətinə istiqamətlənən terror aktını əhatə etdiyi kimi, beynəlxalq bağlantının dolayı şəkildə qurulduğu terror aktlarını da əhatə edir. Belə ki, terrorçu qrup xarici bir dövlətdən nağd pul, silah, logistik, siyasi dəstək alaraq da əməkdaşlıq edə bilər[11, s.44].

Beynəlxalq terrorçuluq ilə qlobal terrorçuluq anlayışları bir-birinə yaxın anlayışlardır və çox vaxt biri digərinin yerinə istifadə edilir. Lakin "qlobal terrorçuluq" anlayışı daha geniş bir anlayışdır və qloballaşmaya duyulan nifrət, "qlobal kənd" halını alan Yer kürəsində terrorun harada, nə vaxt və necə ortaya çıxacağı bilinməyən bir təhdid olduğunu ifadə etməsi və elmi-texniki imkanlardan maksimum səviyyədə istifadə edəcək qabiliyyətə malik olduğunu əks etdirməsi baxımından əhəmiyyətlidir. Bundan başqa, problemi sırf dövlətlər arasında mövcud olan əməkdaşlıqla həll etməyin çətin olduğu da bu anlayışda öz əksini tapır. Bu gün terrorçuluq artıq günlük beynəlxalq həyatı hər mənada, müxtəlif forma və mərhələlərdə narahat və təhdid edir.

Qloballaşmanı terrorçuluğa təsir baxımından qiymətləndirən Friedmana görə o, bir ölkənin daxili siyasəti və xarici münasibətlərini formalaşdıran geniş beynəlxalq sistem olduğunu və qloballaşmanın bir-birinə bağlı üç əsas faktor üzərində yüksəldiyini ifadə edir. Bunlardan birincisi, dövlətlər arasındakı ənənəvi balansdır. Yəni fövqəldövlət olan ABŞ-ın digər dövlətlərlə aralarında olan güc balans və bunun meydana gətirdiyi sistemdir. Bunu, qlobal terrorçuluqla mübarizədə, Amerikanın digər dövlətlərlə münasibətlərində açıq şəkildə görmək mümkündür. İkincisi, milli dövlətlər ilə qlobal bazarlar arasındakı balansdır. Hökumətlərin yıxılmasına səbəb olacaq səviyyədə təsirə malik olan qlobal iqtisadi aktorları tanımadan dünyadakı heç bir prosesi və hadisəni düzgün şərh etmək mümkün deyil. Üçüncüsü isə fərd ilə dövlət arasındakı balansdır. Liberal iqtisadiyyat sayəsində güclənən fərdlər müasir dövrdə dünyada gedən proseslərdə diqqətə alınan faktora çevrilmişdir[7, s.30-36].

İnformasiya texnologiyalarında meydana gələn sürətli inkişafın yaşandığı qloballaşma mərhələsində terror təşkilatlarının sistemini dəyişdirmək üçün fəaliyyət göstərən hər hansı dövlətin olmadığını görürük. Terrorçuluq artıq bir dövlətlə deyil, sistemlə mübarizə aparır və bunun üçün lazım olan şəraitin mövcud olduğu qeyd oluna bilər. Çünki qloballaşan dünyada coğrafi sərhədlər ənənəvi əhəmiyyətini və məkan anlayışı mənasını itirir, sosial kimliklər isə öz formalarını dəyişdirir. Texnoloji inkişafın məkan anlayışında meydana gətirdiyi bu sürətli dəyişmələr mövcud nizamın tənqidə məruz qalmasına və yenidən qurulmasına səbəb olur[5, s.43-44]. Digər tərəfdən qloballaşma yaratdığı yeni imkanlar nəticəsində ona qarşı olan antiqlobalistləri də təşkilatlandırır. Məsələn, antiqlobalistlər əvvəllər mövcud sistemin onlara verdiyi internet və mobil telefonlardan istifadə edərək təşkilatlanarkən, bir mənada yeni sistem və onun qanunları, ona qarşı çıxanlara fərqli səviyyədə də olsa mübarizə imkanı tanımışdır. Qlobal terrorçuluğun əldə etdiyi bu fürsət onların qlobal şəbəkələr qurma imkanından qaynaqlanır. Şəbəkə yaratmaq məqsədi daşıyan bu fəaliyyət forması ilə mübarizə etmək dövlətlər üçün çox çətinləşmişdir. ABŞ-ın Əfqanistanda həyata keçirdiyi kimi, bəzi terror mərkəzlərini bombalayaraq terrorçuların bir hissəsi məhv edilə bilər, lakin belə bir əməliyyat 11 sentyabr aktının planlandığı Hamburq şəhərində həyata keçirilə bilməmişdi. Çünki bütöv bir şəbəkəni bombalayaraq yox etmək fiziki olaraq mümkün deyil. Bu mənada dövlətlərin hərəkət qabiliyyəti, yüksək qlobal terrorçuluq şəbəkələrinə qarşı mübarizəsi tək mərkəzdən idarə edilməyən bir assimmetrik qarşıdurma formasında davam edir [3,s.179-180]. Qloballaşmanın səbəb olduğu bu tendensiya beynəlxalq terorçuluq təşkilatları tərəfindən istifadə edilir. Onlar bu qlobal sistemə özlərini adaptasiya edərək qloballaşırlar. Maraqlı cəhət budur ki, terror təşkilatlarının qlobal oyunçulara qarşı mübarizədə, xüsusilə qloballaşma prosesinin səbəb olduğu neqativ nəticələrə qarşı mübarizə apardıqlarını iddia etmələrinə baxmayaraq, qloballaşmanın imkanlarından da maksimal səviyyədə faydalanırlar. Başqa sözlə, qlobal terrorçuluq qlobal sistemi, sistemin öz silahı ilə vurur.

Qloballaşmanın terror hadisələrinin artmasına səbəb olan başqa bir təsiri də, terrorun cəmiyyəti qorxu altına alması prosesinin daha asan və daha genişmiqyaslı həyata keçirməsinə şərait yaratmasıdır. Bu gün qloballaşan dünyada terrorçuların məqsədlərinə çatmaları üçün imkanlar əvvəlki dövrlə müqayisədə daha genişdir və terror aktının psixoloji təsiri ictimaiyyəti daha qısa müddətdə öz təsiri altına alır [13, s.29]. Beləliklə, qloballaşmanın güclü təsiri ilə ənənəvi mədəniyyətlər zəifləyir, buna paralel olaraq terroristlər daha güclü təşkilatlanır və dünya miqyasında istədikləri məqsədə daha asan çata biləcəkləri münbit şərait əldə edirlər. Əmtəənin, insanların və sərmayənin azad şəkildə hərəkət etməsinə səbəb olan qloballaşma, eyni zamanda beynəlxalq cinayətkar dəstələrin də dünya miqyasında daha rahat hərəkət edə bilmələri üçün şərait yaratmışdır. Əl-Qaidə üzvlərinin iki ildən yuxarı bir müddətdə planlaşdıraraq həyata keçirdikləri 11 sentyabr terror aktı qlobal terrorçuluğun qısa müddətdə və az xərclə bu səviyyədə cinayətləri törədə biləcəyi baxımından əhəmiyyətlidir. Şübhəsiz ki, belə bir mənzərənin meydana gəlməsində ABŞ-ın təhlükəsizlik təşkilatlarının məsələyə laqeyd yanaşması və informasiya çatışmazlığının payı böyükdür. Bu baxımdan psixoloji olaraq motivasiya olmuş terrorçuların tətbiq etdiyi qlobal terror metodlarının maliyyə cəhətdən milyonlarla dollara başa gələn ağıllı roketlərlə aparılan müharibələrin yerini alacağı da proqnozlaşdırılır [3, s.183-184].

Son dövrlərdə dünyanın bir sıra ölkələrindən Suriyanın şimalını nəzarət altında saxlayan İŞİD terror qruplaşmasına qoşulmaq məqsədilə gələn insanların müxtəlif millətlərdən olması qloballaşmanın çoxmillətli xarakterinin terrorçuluq fəaliyyətlərində əks olunmasını göstərən örnəklərdən birini təşkil edir. Qloballaşmanın yaratdığı münbit şərait dünya ictimaiyyətinin terrorçuluğun təsirlərinə daha açıq hala gəlməsinə səbəb olmuşdur. Atom, bioloji və kimyəvi terror təhdidlərindən sonra dünyanın yeni kabusunun xaker hücumları olacağı ifadə edilir. Ənənəvi terror qrupları əsasən bir millətdən və ya bir etnik qrupun nümayəndələrindən ibarət

olduğu halda, bu gün artıq terror təşkilatlarının polietnik xüsusiyyət kəsb etməsi axtarış və cinayətkarların şəxsiyyətinin müəyyən edilməsi prosesində xeyli çətinliklər yaradır. Bu gün düşmən əvvəllər olduğu qədər açıq şəkildə ortada deyil. Başqa sözlə, əvvəllər terror cinayətlərini kimin törətdiyinə dair variantlar daha az olduğu halda, bu gün ehtimalların sayı xeyli artmışdır [6,s.40]. Hazırda dövlətlər siyasi sərhədlərini mühafizə etməkdə çətinlik çəkirlər və ölkəyə giriş-çıxışlara nəzarət etmək xeyli çətinləşmişdir. Bu tendensiya qlobal terror qruplarını daha mütəhərrik vəziyyətə gətirmişdir.

Qloballaşma prosesinin də təsiri ilə terrorçuluq müasir dövrün az xərclə başa gələn, eyni zamanda yüksək təsir gücünə malik strategiya olaraq ortaya çıxmış və bu strategiya müəyyən qruplar, habelə bir sıra dövlətlər tərəfindən istifadə edilən vasitəyə çevrilmişdir. Terror qrupları texnologiyanın inkişafından çox yüksək səviyyədə istifadə edir və təşkilatlarının gücünü bütün dünyanı əhatə edəcək şəkildə genişləndirirlər. Bu da terror aktlarının qarşısının alınmasını çox çətinləşdirir [6,s.4]. Artıq Əfqanistandakı bir problem səbəbilə Amerikada, İraqdakı hərbi hərəkata dəstək verdiyi üçün İspaniyada, İngiltərədə və ya hər hansı bir ölkədə terrorçulara dəstək vermədiyi üçün orada terror aktı törətməkdə terrorçular üçün coğrafi uzaqlıq heç bir məna ifadə etməməkdədir. 11 sentyabr hadisələrində olduğu kimi, qlobal terror təşkilatları kiçik qruplar təşkil edərək və şifrəli xəbərləşmədə kütləvi informasiya vasitələrindən istifadə etməklə, assimmetrik döyüş taktikasının köməyi ilə böyük dövlətlərə qalib gəlməyin mümkün olduğunu ispat etməyə çalışırlar [3, s.186].

Bir sıra mütəxəssislər qloballaşmanın terrorçuluğa təsirlərini aşağıdakı kimi ifadə edirlər:

- Qloballaşma dövlətin iqtisadi sferada rolunu getdikcə azaldan prosesdir. Qlobal terrorçuluq isə çalışır ki, dövlətlər milli sərhədlərin qorunması və ictimai təhlükəsizliyi təmin etmək işini lazımi səviyyədə həyata keçirə bilməsin.
- Qloballaşma dövründə xarici investisiya üçün həmişə maraqlı olduqları ölkələrin iqtisadi və siyasi sabitliyi ən mühüm məsələdir. Qlobal terrorçuluq bu sabitliyi pozmaq üçün kifayət qədər yüksək imkanlara malikdir. Terrorçuluq qorxu mühiti formalaşdıraraq investisiyanın ölkəni tərk etməsinə səbəb olur və iqtisadi inkişafa mane olur.
- Qloballaşma mərhələsində investitorlar risk səviyyəsi aşağı olan maliyyə bazarlarına üz tuturlar.
- Qloballaşma prosesi ilə bərabər fərdlər istər iqtisadi bazarlara, istərsə milli dövlətlərə təsir etmək baxımından tarixdə ilk dəfə olaraq bu qədər böyük imkanlara malik oldular.
- Qloballaşma miqrasiya proseslərini məhdudlaşdıran fiziki sərhədləri aradan qaldırdı, eyni zamanda, dünyanı informasiya şəbəkəsi ilə təchiz etdi. Lakin qlobal terrorçuluq üçün də həyati əhəmiyyət kəsb edən xəbərləşmə və nəqliyyat imkanlarından terrorçuları təcrid edə bilmədi.
- Qloballaşmanın ticarətdə və rabitədə müəyyənedici əsas göstəricisi olan vaxt və sürət amili qlobal terrorçuluqda da komputer texnologiyaları və xəbərləşmə sistemləri ilə həyata keçirilir.
- Qloballaşmanın və terrorçuların istifadə etdiyi texnologiyalar demək olar ki, oxşardır. Kompüter, rəqəmsal cihazlar, peyk üzərindən rabitə, fiber-optik texnologiya, internet genetik dəyişiklik kimi yeni dünya nizamını təhdid edən terror silahları ilə qloballaşan dünyanın inkişaf və qorunmaq üçün istifadə etdiyi texnologiyalar paralellik təşkil edir (5,s.45)

Qlobal terrorun İslam coğrafiyasından başlayıb, dünya miqyasında yayılmasının səbəbini - başlarına gələn fəlakətlərin səbəbkarlarını xaricdə axtaran, "geri qalmışlıq" psixologiyası səbəbi ilə daha çox aqressivləşən, Qərbə qarşı bütün sahələrdə mübarizədə məğlub olduğuna inanan və emosionallığı yüksək səviyyədə olan radikalların siyasi şiddət aktlarına üz tutması və terrorçuluğu tək mübarizə vasitəsi olaraq görmələri kimi ümumiləşdirmək olar [1, s.213-214].

Beynəlxalq terrorçuluğun təsir gücünün artmasının səbəbləri arasında qloballaşmaya qarşı reaksiya, elm və texnologiyanın inkişafının terrorçu təşkilatların işini asanlaşdırması, müəyyən

dövlətlərin terroru görməzdən gəlməsi və ya dəstəkləməsi, terrora dəstək verən kütlələrin sayının artması yer alır. Həmçinin qanunsuz yollarla narkotik vasitələrin dövriyyəsi və silah qaçaqçılığı kimi fəaliyyətlərlə maddi gəlir əldə edən terror qrupları həm metodlarını genişləndirmiş, təsir gücünü artırmış, həm də ən ciddi təhdid növü olaraq beynəlxalq münasibətlər müstəvisinə daxil olmuşlar.

**Nəticə.** Soyuq müharibə dövründə bir sıra dövlətlərin xarici siyasət vasitəsi olaraq istifadə etdiyi terrorçuluq 11 sentyabr 2001-ci il tarixindən sonra varlığını hər keçən gün daha çox hiss etdirən qlobal terrorçuluğa çevrilmişdir. Qlobal terrorun səbəbləri arasında aşağıda qeyd olunanlar əsas yer tutur:

- dünyanın müxtəlif regionlarında davam edən münaqişə və müharibələr. Məsələn, Yaxın Şərqdə davam edən Fələstin-İsrail və ya ərəb-İsrail qarşıdurması bu gün terrorçuluğu qloballaşdıran ən əhəmiyyətli faktordur;
- qlobal terrorçuluğun ikinci əsas səbəbi qloballaşma mərhələsində böyük dövlətlərin dünya lideri və bölgəsəl güc olmaq uğrunda apardıqları mübarizədir. Bu nöqteyi - nəzərdən ABŞ hazırkı mövqeyini daha da möhkəmləndirmək üçün bu istiqamətdə xarici siyasət kursu həyata keçirir;
- qlobal terrorun üçüncü səbəbi millətçi və dini motivli radikalizmdir;
- dördüncü səbəb isə texnologiyanın sürətlə inkişaf etməsidir. Bu inkişaf terrorçulara daha yaxşı təşkilatlanmağa, bir-biri ilə sürətli əlaqə saxlamağa, daha çox kütləni öz təsirləri altına almağa və törətdikləri cinayətlərin məqsədinə çatması üçün mediya şəbəkəsindən istifadə etməyə imkan verir.

**Açar sözlər:** *qloballaşma, terrorizm, beynəlxalq terrorizm, terrorizm əlehinə mübarizə*

### İstifadə olunmuş ədəbiyyat

1. Bal İ. Küresel terörle mücadele. Türkiye-AB eksenli güvenlik politikaları. İstanbul: Hayat, 2004.
2. Battersby P., Siracusa J. Globalization and human security. Rowman& littlefield publishers. Maryland, USA, 2009.
3. Castells M. Kimliğin gücü, enformasyon çağı: ekonomi, toplum ve kültür. Cild II. İstanbul Bilgi Universiteti, 2008.
4. Chanda N. Küreselleşmenin sıradışı öyküsü. Ankara: ODTÜ, 2009.
5. Çelik F., Dağdeviren D. Küreselleşme, küresel terörizm ve özel güvenliğin artan önemi. Polis jurnalı, No: 10/40, 2004.
6. Demir L. Küreselleşme ve terör. Afyon Kocatepe Universiteti, Afyonkarahisar, 2009.
7. Freidman L.T. Lexus ve zeytin ağacı – küreselleşmenin geleceği. İstanbul: Boyner, 2002.
8. Giddens A. Üçüncü yol-sosyal demokrasinin yeniden dirilişi. İstanbul: Birey, 2000.
9. Marshall G. Sosyoloji sözlüğü. Ankara: Bilim ve sanat, 1999.
10. Robertson R. Toplum kuramı, küresel görecelik ve küresellik sorunu Ankara: Bilim ve Sanat, 1998.
11. Taşdemir F. Uluslararası terörizme karşı devletlerin kuvvete başvurma yetkisi. Ankara: USAK, 2006.
12. Türköz Ş. Terör ve demokrasi: bir alan kazanma mücadelesi. Karadeniz Sosyal Bilimler Jurnalı, No: 4/7, 2012.
13. Yılmaz S. Türkiye'nin iç güvenlik yapılanmasında değişim ihtiyacı. Ç.Ü.Sosyal Bilimler Enstitüsü Jurnalı, No: 21/3, 2012.

**Раджаб БАБАЕВ**

## ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИЯ НА МЕЖДУНАРОДНЫЙ ТЕРРОРИЗМ

**Резюме**

Понятие глобализации это процесс формирования нового образа мышления, видящего мир как единое пространство. Быстрый рост населения, развитие коммуникационных технологий и гонка вооружений значительно увеличили разные виды «угроз», одним из которых является терроризм.

Причины, лежавщие в основе терроризма, разные: внутренние и внешние, политические, экономические, религиозные, этнические, культурные причины. Один из самых распространенных и угрожающих международной безопасности видов терроризма – это международный терроризм.

Международный и глобальный терроризм близкие понятия и нередко одно понятие заменяется другим. Однако «глобальный терроризм» более широкое понятие и выражает вид угрозы, который очень трудно предугадать.

**Ключевые слова**: *глобализация, терроризм, международный терроризм, борьба против терроризма.*

**Rajab BABAYEV**

## IMPACT OF GLOBALIZATION ON INTERNATIONAL TERRORISM

**Summary**

The concept of globalization is the process of shaping new understanding that sees the world as a single space. The rapid growth of the world population has significantly increased the kinds of threat development of information communication technologies. Terrorism is one of the most dangerous and widespread threats among these threats.

The basic causes of terrorism are extremely diverse: internal and external reasons, political, economic, religious, ethnic, cultural, and so on. One of the most dangerous levels of terrorism that threatens the most widespread and humanitarian security is international terrorism.

International terrorism and global terrorism are closely related to each other and they are often used interchangeably. But the notion of “global terrorism” is a broader concept, and it expresses a threat, where and when and how terrorism is a threat.

**Keyword:** *globalization, terrorism, international terrorism, global terrorism, anti terrorism*